## "Molla Nəsrəddin" haqqında ədəbi simaların fikirləri

- ***Həmidə xanım Cavanşir - Məmmədquluzadə:*** "1906-cı il aprel ayının 7-si gecəsi Mirzə Cəlillə Ömər Faiq Nemanzadənin cibində cəmi 9 manat pul var imiş. Onlar da bu pula çap dəzgahının qulpunu fırlatmaq üçün bir hambal tutublarmış. Gecə hambalı yola saldıqdan sonra ikinci hambal tutmağa daha pul qalmayıb. Onlar özləri səhərə qədər növbə ilə çap dəzgahının qulpunu fırlayıblar".

- ***Üzeyir bəy Hacıbəyli:*** "Jurnal inqilabçıdır, azadlıq mübarizidir. "Molla Nəsrəddin" qırmızı rənginə görə həbs edilmişdir".

- ***Yusif Vəzir Çəmənzəminli:*** "Əsrlərcə məzhəkə ilə tərbiyə tapan millətimiz aşkardır ki, "Molla Nəsrəddin" jurnalının zühuruna artıqlığınca sevindi... Ciddi qəzet və jurnallarımızın çətin dilləri, duzsuz yazıları ilə oxucuları zara gətirdikləri zaman "Molla Nəsrəddin" şöhrət tapıb, vətənimizin hər guşəsində oxunurdu... Kəmsavad baqqallarımız, çərçilərimiz höccələyə-höccələyə oxuyub "Molla Nəsrəddində"dən ləzzət apardıqları kimi, studentlərimiz, doktorlarımız, laqeyd bəy və hökumət məmurluğunda olanlarımız da ondan həzz alırdılar. Çox ailələrdə arvadlar toplanıb, balaca uşaqlara oxutdurub qulaq asırdılar" .

- ***Əziz Mirəhmədov:*** "Molla xalq müdrikliyinin və hazırcavablığının ifadəçisidir. Onun lətifələri o qədər həyati və məzəlidir ki, bu lətifələrdə o qədər səmimi bir yumor vardır ki, hamı onlarla maraqlanır və azərbaycanlıların arasında həmin lətifələri bilməyən və yeri gələndə bu və ya digər bir lətifəni danışmayan adam çox nadir tapılar".

- ***Firudin bəy Köçərli:*** "Molla Nəsrəddin" jurnalı ilk nömrələrindən başlayaraq bizim ölkənin müsəlmanları arasında canlı maraq oyatmışdır... Jurnalı bir qrup ziyalı müsəlmanların əməkdaşlığı ilə savadlı və mədəni azərbaycanlı Cəlil Məmmədquluzadə nəşr edir... "Molla Nəsrəddin" nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir".

Azərbaycan.- 2019.- 15 fevral.- S.10.